# 80 il əvvəl

## Tokay Məmmədov

*Cari ildə yubileyini qeyd etdiyimiz sənətkarlardan biri də görkəmli heykəltəraş, Azərbaycanın əməkdar incəsənət xadimi, Respublikanın xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, professor, SSRİ Dövlət Mükafatı laureatı Tokay Məmmədovdur.*

*Tokay Həbib oğlu Məmmədov 1927-ci il iyulun 18-də Bakıda anadan olmuşdur. İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu bitirmişdir. 1970-1972-ci illərdə Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədri olmuşdur.*

*Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, barelyef və s.) əsərlər yaradır.*

*T.Məmmədovun ilk əsərləri («Bakı komissarları», «Partizan Mixaylo», «S.Vurğunun portreti», «Nizami Gəncəvi» və s.) dinamikliyi, ifadəliliyi, plastik formaların orijinallığı ilə fərqlənir.*

*Monumental heykəltəraşlıq T.Məmmədovun yaradıcılığında mühüm yer tutur. Ü.Hacıbəyovun (tunc, qranit - 1960), M.Füzulinin (Ö.Eldarovla birgə tunc, qranit - 1962 ), M.Əzizbəyovun (tunc, qranit - 1977), İ.Nəsiminin (İ.Zeynalovla birgə - tunc, qranit - 1979) və b. plastik ahəngdarlığı, obrazın psixoloji vəziyyətinə münasib forma seçilməsi baxımından dünya heykəltəraşlığının ən yaxşı nümunələrindəndir...*

***TURAL***